**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**TARKAN MUSTAFA oğlu ERKAN**

# İZMİR VİLAYƏTİ TORBALI BÖLGƏSİNİN MUSİQİ FOLKLORUNUN TƏDQİQİ

6213.01 – Musiqi sənəti

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2015**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** sənətşünaslıq üzrə elmlər doktoru
**Ceyran Emin qızı Mahmudova**

**Rəsmi opponentlər:** sənətşünaslıq üzrə elmlər doktoru, dosent
**Nailə Rasim qızı Rəhimbəyli**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Əfsanə Ağayar qızı Babayeva**

**Aparıcı təşkilat:** Azərbaycan Milli Konservatoriyasının Milli musiqinin tarixi və nəzəriyyəsi kafedrası

Müdafiə _______________ 2015-ci ildə saat ______ Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ______________2015-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir dövrdə musiqişünaslıqda ənənələrin hələ də yaşamaqda olduğu bölgələrin tədqiqi çox əhəmiyyətlidir. Ənənələrin, adətlərin atadan-oğula ötürülməsi anlayışı çərçivəsində mərasimlərin nəsildən-nəslə davam etdirilməsi təbiidir. Ənənəvi quruluş - müasirləşən və qloballaşan dünyamızda, keçmiş və gələcək arasında qurulan ən möhkəm körpü əhəmiyyətini daşıyır. Bu vəziyyət ənənəvi quruluşun daxilində hələ də yaşamaqda olan ənənəvi musiqi və rəqslərin əhəmiyyətini daha da artırır.

Yaşadığımız çağdaş dövrdə, müasirləşmənin və ünsiyyətin sürətli bir şəkildə yayılması sayəsində, ənənəvi quruluşun da bundan təsirlənməsi normal bir nəticə olaraq qarşımıza çıxır. Gələcək yeni nəsildə bu gündən fərqli bir ənənəvi mənzərənin bizi gözləyəcəyi qaçınılmaz bir haldır. Bu hal mədəniyyətin dəyişməsinin təbii nəticəsidir. Mədəniyyət özünü davamlı surətdə yeniləyir və dəyişir. Bu proses davam edərkən, hələ də ənənəvi mədəniyyətin bütün elementlərinin toplanması və qeydə alınması lazımdır.

Türkiyədə mövcud olan fərqli mədəniyyətlərdə ənənəvi quruluşlu oyun və musiqi növləri olduqca zəngindir. Bunlardan biri də İzmir zeybek oyunları və musiqisidir. Zeybek janrının xüsusi öyrənilməsi böyük aktuallığa malik bir mövzudur.

8000 illik bir tarixə sahib olan İzmir vilayəti, bir çox mədəniyyətlərin birləşdiyi mərkəz halına gələrək, müxtəlif musiqi janrlarının sahib olduğu mədəniyyət mərkəzinə çevrilmişdir. İzmir yerli xalq musiqisi ilə yanaşı, etnik mənşəli xalq musiqisi, Türk sənət musiqisi, hərbi musiqi, məscid musiqisi, xalq musiqisi, milli musiqi, dünya musiqisi və s. hər cür musiqinin birgə yaşaya bildiyi bir şəhər olmuşdur. İzmir vilayəti inkişaf edən, fərqliləşən ictimai və mədəni quruluşu ilə musiqidəki zənginliyini ortaya qoymuşdur.

Ancaq xalqın hər zaman yaşatdığı bir janr, məşhur mədəniyyətlə və ya digər musiqi növləri yarışmadan, sonradan gələn deyil, keçmişi ilə günümüzə qədər gəlməyi bacaran, əsilliyini pozmadan, üzərinə tarixi və həyatları da qoyaraq gələn, çox uzun illərə baxmayaraq qalan zeybek musiqisi olmuşdur. Zeybek musiqisi ölkəmizin dünyaya təqdim etdiyi rəngarəngliyi ilə müzakirə edilməz bir musiqi janrıdır. Çünki bir çox xüsusiyyətlərinə görə dünyada başqa nümunəsi olmayan tək musiqi janrımız olma xüsusiyyətinə malikdir.

Bu günə qədər edilən araşdırmalarla 6 bölgədən meydana gəldiyi bilinən İzmir zeybek musiqisi və oyunlarının, apardığımız bu işin nəticəsində 7 bölgəyə ayrılmasının lazım olduğunu düşünürük. Belə ki, Torbalı bölgəsində xalq musiqisinin araşdırılması nəticəsində, ortaq İzmir tərzi daxilində Torbalının 7-ci region olaraq qəbul edilməsi zərurəti mülahizəsi ilə "İzmir vilayəti Torbalı bölgəsinin musiqi folklorunun tədqiqi" adlı bu tədqiqat, öz sahəsində ilk dəfə edilmiş bir təsbit çalışması olmaqla birlikdə Azərbaycan Respublikasında Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının qaynaqlarında yerini almışdır.

Müasirləşən dövrümüzdə bu tip işlərin daha çox görülməsinin vacibliyi və zəruriliyi önə çıxır. Bu da apardıığımız tədqiqatın aktuallığını şərtləndirir.

**Tədqiqatın elmi yeniliyi.** Torbalı bölgəsinin mədəni quruluşunun fərqliliyi və özünəməxsusluğuna görə, İzmirdə zeybek musiqisi və zeybek oyunlarının bundan sonra yeddi fərqli bölgədən meydana gəldiyini söyləyə bilərik. Buna görə zeybek ənənəsinin yayılma arealını göstərməklə, yeni fikirlərimizi bu şəkildə ortaya qoya bilərik: 1.Bergama bölgəsi, 2.Menemen bölgəsi, 3.Mərkəzi bölgə, 4.Karaburun bölgəsi, 5.Ödemiş bölgəsi, 6.Cuma Düzənliyi bölgəsi, 7.Torbalı bölgəsi – musiqi folklorunun özünəməxsus janrı olan zeybek oyun və musiqisinin geniş yayıldığı ərazilərdir.

Bu vəziyyətin ilk dəfə üzə çıxarılması və Torbalı ilə əlaqədar yeni aparılacaq işlərə təkan verməsi dissertasiyamız üçün böyük əhəmiyyət kəsb edir. İlk dəfə olaraq, Torbalı bölgəsinin Göllücə köyündə, Orman köyündə, Helvaçı köyündə qaynaq şəxslərlə görüşülərək türkü söyləmə və oyun oynama ənənəsi haqqında təsbit çalışmasını reallaşdırdıq.

Müasir dövrdə mədəniyyətimizə aid olan ənənə və adətlərin tətbiqinə şahid olan mərasimlərdən biri də toy mərasimləridir. Dissertasiyanın elmi yeniliyindən biri də Torbalı bölgəsinin Göllücə köyündə, Orman köyündə, Helvaçı köyündə aparılan sahə araşdırmalarında, toy mərasimlərində bölgəyə aid ənənə və adətlərin hələ də yaşadıldığını üzə çıxarmaqdan ibarətdir.

Dissertasiyanın əsas elmi yeniliyi İzmir vilayətinin Torbalı bölgəsindəki Göllücə köyündə, Orman köyündə, Helvaçı köyündə aparılan araşdırmalar nəticəsində qədim ənənələrin üzə çıxarılması, sistemli şəkildə öyrənilməsi, musiqi folklorunun toplanılması və nota salınması, adət-ənənələrin təsvirinin və musiqi məzmununun yazıya alınaraq, onların qorunmasını və gələcək nəsillərə ötürülməsini təmin etməkdən ibarətdir.

**Mövzunun işlənmə dərəcəsi.** Türkiyədə xalq mədəniyyəti mövzusunda araşdırmalar aparan təşkilatlar vardır. Hal-hazırda bu işləri davam etdi-

rənlərin başında xalq musiqisi, xalq oyunları, ənənəvi geyim, xalq çalğıları mövzulu araşdırmaları ilə Ege Universiteti Dövlət Türk Musiqisi Konservatoriyası diqqət çəkməkdədir. Meydana gətirdiyi diyarşünaslıq muzeyinin arxivi və bu mövzuda aldığı mükafatlar bunun ən böyük göstəricisidir.

Ayrıca Türkiyə Cumhuriyyəti  Mədəniyyət və Turizm Nazirliyinin nəzdində qurulmuş HAGEM [xalq mədəniyyətlərini araşdırma və inkişaf etdirmə ümumi müdirliyi] 1973-cü ildə nazirlər kabinetinin qərarı ilə, milli folklor dairəsi başçılığı adı altında qurulmuş [MİFAD], 1991-ci ildə ad dəyişikliyinə uğramışdır, Mədəniyyət və Turizm Nazirliyinə bağlı çalışan ən əhəmiyyətli xalq institutudur.

Araşdırma və toplama işləri ilə əlaqədar məlumatda xüsusi yığılanların sayının 10000 nəğməni keçdiyi bildirilir. Bununla birlikdə, rəsmi yığılanların da sayı 10000 melodiyadan çoxdur və işlər hələ davam etdirilməkdədir.

Fonoqrafın icadı ilə birlikdə yer üzünün dörd bir yanında başlayan xalq melodiyalarının toplanması ilə bağlı ilk işlərdən biri Anadolu ərazisində reallaşdırılmışdır. Anadolu torpaqlarında fonoqrafla ilk dəfə xalq musiqisinin yazılması 1901-ci ildə Feliks von Luchan tərəfindən Ayıntapta həyata keçirilmişdir. Bu sıradan bəzi səs yazılarının İstanbulda yenə o dövrlərdə edildiyini bilirik. Ancaq planlı və dövlət dəstəkli ilk iş, Maarif Vəkalətinin 1925-ci ildə başlatdığı toplama işidir. Seyfettin Asaf və Sezai Asafın fonoqraf istifadə etdikləri toplama çalışması Qərbi Anadoluda edilmişdir.

Bu istiqamətdə böyük işlər görmüş dörd təşkilatın adı qeyd olunmalıdır: 1.Darül-Elhan; 2.Ankara Dövlət Konservatoriyası; 3.Türkiyə Radio və Televiziya təşkilatı (TRT); 4.Mədəniyyət Nazirliyi. Bu təşkilatların xalq musiqisinin səs və not yazılarının toplanılması üzrə işləri sistemli şəkildə bir sıra yerlərdə həyata keçirilmişdir.

Türkiyədə xalq musiqisilə bağlı çap nəşrləri sırasında: 1926-cı ildə İstanbul Bələdiyyə Konservatoriyasının təqdim etdiyi 14 dəftərdən ibarət "Anadolu xalq mahnıları"; Sarısözenin 1941-ci ildə təqdim etdiyi "Seçmə Köy Türküleri" və 1962-ci ildə "Türk Xalq Musiqisi üsulları" kitabları əhəmiyyətli nəşrlər kimi qeyd edilməlidir. 1944-cü ildə xalq rəqsləri ilə bağlı olaraq 3 cildlik bir nəşr olan Kasım Ülgenin yazdığı "Doğu Anadolu Oyun Havaları"yayımlandı. 1964-1965-ci illərdə əhəmiyyətli iki nəşr meydana gəlmişdir: Mətin Andın "Türk Kəndli Dansları", Şərif Baykurtun "Türk Xalq Oyunları" adlı kitabı.Sədi Yavər Ataman tərəfindən hazırlanan "100 Türk Xalq Oyunu" adlı əsəri 1975-ci ildə təqdim olundu. 1900-ci

ildən 1975-ci ilə qədər edilən xalq rəqsləri ilə bağlı işlərindən faydalanmaq surətilə Cəmil Demirsipahi tərəfindən meydana gətirilən və 1975-ci ildə not və rəngli şəkillərlə nəşr olunan "Türk Xalq Oyunları" adlı qiymətli əsər də burada qeyd edilməlidir.

Bundan əlavə, İstanbul Bələdiyyəsi Konservatoriyası tərəfindən xalq musiqisinin öyrənilməsi üzrə toplama işləri aparılaraq, Yusuf Ziya Demircioğlu, Mahmud Ragıp Gazimihal, Ferruh Arsunar və Abdülkadir İnandan ibarət bir qrup, aralarında olan bir kino operatoru vasitəçiliyi ilə Trabzon, Rize, Erzincan və Ərzurum xalq rəqslərini kino lentinə almışlar.

Qurumların xaricində təşkilat dəstəyi olaraq və ya fərdi olaraq sahə araşdırması edən əhəmiyyətli adlar sırasında musiqi sahəsində Muzaffer Sarısözen, Halil Bedii Yönetken, Nida Tüfekçi, Mustafa Hoşsu, Yücel Paşmakçı, Ziya Gökalp, Fuad Köprülü, Rıza Tevfik Bölükbaşı gəlir. Yeni dövr folklorçulardan isə Abdurrahim Karademir, Ahmet Çakır, Şahin Ünal, Cengiz Aydın, M. Öcal Özbilgin, Gürbüz Aktaş, Gani Pekşen, Metin Ekici, Sabahattin Türkoğlu, İsmail Özboyacı, Necat Çetin, Zeynel Demir ve iddiaçı Tarkan Erkan qeyd olunmalıdır. Hal-hazırda da bir çox alimlər tərəfindən bu kimi araşdırmalar davam etdirilir.

Müəllifi olduğumuz "Türk Halk Oyunları Müziklerinden Örnekler" adlı kitab, bu sahədə görülmuş önəmli çalışmalardan biridir. Türkiyədə 4 ayrı konservatoriyada istifadə olunan kitab, 17 bölmə, 266 not yazısından ibarətdir. 2008-ci ildə İzmirdə nəşr olunmuş bu kitabın ən böyük özəlliyi, Ege Universiteti Dövlət Türk Musiqisi Konservatoriyası Türk Xalq Oyunları bölümünün proqramına uyğun olub, buradakı repertuar üçün etibarlı olmasındadır. Başqa qaynaqlarda olmayan bir çox xalq musiqi oyunları bu kitabda toplanaraq mühüm bir mənbəyə çevrilmişdir.

Lakin onu da deməliyik ki, Torbalı bölgəsində aparılan araşdırmalar ümumi mənada, tarixi, sosioloji və s. baxımdan yazılı olaraq daha çox tədqiqat obyektinə çevrilsə də, musiqi və folklor cəhətdən öyrənilməmişdir. Bu işimiz Türkiyədə ilk olaraq tərəfimizdən icra edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Təqdim olunan dissertasiyanın əsas məqsədi İzmir vilayəti Torbalı bölgəsinin musiqi folklorunun araşdırılmasından ibarət olduğuna görə biz musiqi nümunələrinin toplanılması işlərinə xüsusi diqqət yetirmişik. Bu baxımdan dissertasiyada aşağıdakı vəzifələr həyata keçirilmişdir:

- Xalq yaradıcılığı üzrə araşdırmalarda toplama üsulları və texnikalarından istifadə olunaraq, sahə araşdırmalarının aparılması. Toplama za-

manı müəyyən bir zamanda, müəyyən bir yerdə, müəyyən bəzi vasitə və üsullardan istifadə etməklə, mütəxəssis alim və ya həvəskar olaraq xalq elminə maraq duyan adam və ya şəxslər tərəfindən, xalq məlumatı məhsullarını yaradan, yenidən yaradan, daşıyan, nəql və icra edən şəxslərdən şifahi, yazılı və vizual olaraq yazılması və maddi məhsulların toplanması işini həyata keçirmək.

-Toplama işlərinin aparılacağı bölgədə əvvəlcə, toplama planının edilməsi. Qaynaq şəxslərə hansı sualların veriləcəyinin təsbiti toplama addımlarının prioritetlərindən biridir. Aparılan sahə araşdırması böyük bir sahəni əhatə etdiyinə görə, xalq yaradıcılığı məhsullarının daha sıx olduğu və ənənə olaraq davam etdirildiyi yerlərə diqqət yetirmək. Sahə araşdırmalarında zaman bölgüsünün müəyyənləşdirilməsi də çox əhəmiyyətli bir cəhətdir.

- Toy mərasimində icra olunan musiqi nümunələrinin, adət-ənənələrin köklərini araşdırmaq. Toplama işinin təbii yolla aparılması, nəticənin dəqiq çıxmasına səbəb olur. Toplama əsnasında qeydiyyat vasitələrinin olması və hətta bu vasitə və vəsaitlərdən istifadə zamanı professional şəxslərin olması lazımdır.

- Sahə araşdırmasının ediləcəyi bölgə ilə əlaqədar ön məlumat əldə edilməsi, məlumatların daha sağlam bir məqamda alınmasını təmin edəcək. Görüş zamanı yaradılan imkan və suallara alınacaq cavablar baxımından son dərəcə əhəmiyyətlidir.

- Araşdırma aparılan yerin tarixi, coğrafi xüsusiyyəti, iqlimi, ictimai quruluşu, dil xüsusiyyətləri ilə əldə ediləcək məlumatlar araşdırmanın səmərəli olması üçün əhəmiyyətli məqamlardır.

**Tədqiqatın metodoloji əsası.** Elmi sahə araşdırması, ənənə və adət ilə əlaqədar materialların ortaya çıxarılması mənasında həyati əhəmiyyət daşıyan və diqqətlə edilməsi lazım olan çalışmalardandır. Sahə araşdırmaları elmi üsul və metodlara bağlı qalaraq toplama texnikalarından faydalanılaraq edilməkdədir. Əldə olunan məlumatların qiymətləndirilməsi, təsnifatı və səhnədə tətbiq olunması kimi mövzularda sahə araşdırması sonrası ediləcək əhəmiyyətli qaydalardır. Bu işlərdə istifadə edilməsi lazım olan üsul və texnikalar araşdırma edənlərə daha dəqiq və doğru məlumat toplama mənasında köməkçi olmaqla birlikdə, daha sonra eyni bölgədə araşdırma etmək istəyən başqa araşdırmaçılara da yol açmaqdadır.

**Dissertasiyanın obyekti və predmeti.** Təqdim olunan dissertasiyanın obyektini Türkiyənin geniş ərazilərə məxsus, rəngarəng musiqi folklorunun

araşdırılması təşkil edir. Tədqiqatın predmetini mərasim mədəniyyətinin tərkib hissələrinin not yazıları əsasında araşdırılması təşkil edir.

**Tədqiqatın materialı**. Bu iş fərqli mədəniyyətlərə sahib olan İzmir vilayəti Torbalı bölgəsi kəndlərindən, hələ də ənənənin davam etdiyi Göllüce kəndi, Helvacı kəndi və Orman kəndi sahə araşdırması, toplama üsul və texnikalarından faydalanılaraq edilmişdir. Araşdırma sonrasında yazılan bütün məlumatlar deşifrə edilərək yazıya köçürülmüşdür. Musiqi notlaşdırılaraq, əsərlər təhlil edilmişdir. Bölüm arxivinə təhvil verilmişdir.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti.** Araşdırmamıza mövzu olan toy və xına mərasimlərinə aid ənənələr, toy və xına əyləncələri toy salonlarına daşındığı üçün təəssüf ki, yox olmaq üzrədir. Bu araşdırmalarımız üçün göstərilən bölgədəki bəlkə də son vəsaitlər, yetişə bildiyimiz ölçüdə yığmış olduq. Kənd olaraq xarakterizə edilən yerlər də dəyişən və böyüyən dünyaya sürətli bir şəkildə ayaq açır. Bu vəziyyət mədəni dəyişikliyi də özü ilə gətirir. Dəyişmə, ənənələrimizi tamamilə bitirmədən ənənəvi, mədəni məlumatları toplamaq və topladığımız bu məlumatları gələcək nəsillərə çatdıra bilməmiz lazımdır. Bu vəziyyət ölkələrin və mədəniyyətlərin var olması üçün qaçınılmaz bir amil olmalıdır. Bu səbəblə mədəni zənginliklərimizin bir parçası olan ənənələrimizin yaşaması və gələcək nəsillərə ötürülməsi üçün aparılan işlərin əhəmiyyətli olduğunu vurğulamaq lazımdır. Bu baxımdan, təqdim etdiyimiz dissertasiyada mövzunun araşdırılmasına çalışmışıq ki, bu da gələcək nəsillərə yol açmaq baxımından əhəmiyyətlidir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, 5 yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat, internet mənbələri və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

**Dissertasiyanın I fəsli** "**İzmir vilayətinin musiqi mədəniyyəti və zeybək janrı" adlanır. Bu fəsil iki bölmədən ibarətdir: 1.1. "İzmir vilayətinin və Torbalı bölgəsinin tarixi, coğrafi quruluşu"; 1.2. "Zeybək - türk musiqi folklorunun janrı kimi".**

**Fəslin birinci bölməsi (1.1.) “İzmir vilayətinin və Torbalı bölgəsinin tarixi, coğrafi quruluşu” ilə bağlı məlumatlara həsr olunmuşdur.** İzmir, Türkiyənin İstanbul və Ankaradan sonra üçüncü böyük vilayətidir. İndiki zamanda İzmir olaraq istifadə olunan şəhər adı, Smyrna sözünün çevrilmiş formasıdır. Smyrna sözünün daha erkən formalarının Smira, Lesmira, Zmirra, İsmira, Samorna və ya Smurna olduğu da iddia edilir. Smyrna sözünün istifadə edilməsi, şəhərin qurulduğu yerin yaxınlığında bir müqəddəs sahənin olması ilə əlaqələndirilir. Bu müqəddəs sahənin, Xalqapınar qaynağı və bu qaynağın meydana gətirdiyi kiçik göl olduğu iddia edilir. Smyrna / İzmir adının, Ana Tanrı Qaynağı / Gölcüğü və ya ən azı Ana Tanrı / Kutsal Ana mənaları ilə əlaqədar olduğu güman edilir.

İzmirin yaranma tarixi və yeri barədə məlumatlar mübahisəli olmaqla yanaşı, bu gün Bayraqlı səmtində yerləşən və Tepekule olaraq tanınan örən yerinin, qədim İzmirin quruluş yeri olduğu qəbul olunmuşdur. Türkiyənin üçüncü böyük şəhəri olan İzmir müasir, inkişaf etmiş, eyni zamanda işlək bir ticarət mərkəzidir. İzmirin Qərbində nəfis rəngli dənizi, çimərliklər və termal mərkəzləriylə Bulaq yarımadası uzanır. Antik çağların ən məşhur şəhərləri arasında yer alan Efes, Roma dövründə dünyanın ən böyük şəhərlərindən biri idi. Bütün İon mədəniyyətinin zənginliklərini özündə cəmləşdirən Efes, sıx bədii fəaliyyətlərlə də tanınırdı.

İzmir 30 mahala malikdir. Bunlar Bergama, Dikili, Kınık, Əliağa, Foça, Menemen, Çiğli, Karşıyaka, Bornova, Bayraklı, Konak, Kemalpaşa, Buca, Gaziemir, Balçova, Narlıdere, Karabağlar, Güzelbahçe, Urla, Karaburun, Bulaq, Seferihisar, Menderes, Bayındır, Tire, Ödəmiş, Albalı, Beydağ, Səlcuq və Torbalıdır.

**Torbalı bölgəsi.** Torbalı adının mənşəyi mövzusunda tam qəti məlumat yoxdur. Bu mövzuda müxtəlif fikirlər vardır. 1675-ci ilin oktyabr ayında, yolu Torbalı ətrafına düşən səyyah Jakob Sponun gəzinti qeydlərini yazıya köçürən İlhan Pınar mətnin bu hissəsində “Tourbale” ifadəsini eynilə köçürmüş və mötərizədə “Torbalı” şərhini etmişdir. Buna görə 1600-cü illərin sonlarından “Torbalı” ifadəsi bu bölgədəki bir kənd üçün istifadə edilmişdir. Dissertasiyanın bu bölməsində Torbalının tarixi inkişafı sənədlər əsasında izlənilir. Torbalının kəndləri: Arslanlar, Atalanı, Bülbüldere, Çamlıca, Çapak, Dağkızılca-Bucaq Mərkəzi, Dağteke, Demirci, Doğancılar, Düverlik, Eyerci, Kaplancık, Karakızlar, Karaot, Kırbaş, Korucuk, Kuşçuburunu, Naimeköy, Özbey, Pamukyazı, Sağlık, Saipler, Şehidler,

Taşkesik, Tulum, Yeniköy, Yeşilköy, Yoğurtçular, Bozköy, Çakırbeyli, Ahmetli, Göllüce, Helvacıköy, Ormanköy.

Yazılı mənbələrdə İzmir tarixinə dair məlumatlar e.ə. 5000-3000-ci ilə qədər gedib çıxır. 2005-ci ildə aparılan arxeoloji qazıntılar nəticəsində, tarixinin 8000 il əvvəlinə qədər uzandığı təsbit edilmişdir. Yeşilova Höyüğündə İzmir Böyükşəhər Bələdiyyəsinin dəstəyi ilə, Ege Universiteti Ədəbiyyat Fakültəsi Arxeologiya Bölümü tərəfindən Yeşilova Höyüğündə başladılan qazıntılarda əldə edilmiş tapıntılar, İzmirin tarixini dəyişdirmişdir. Arxeoloji tapıntıların araşdırılması ilə, bu günə qədər 5000 illik olduğu bilinən İzmir tarixinin, 8000 il əvvəlki "cilalanmış daş dövrü"nə qədər uzandığı qeyd olunmuşdur.

Artıq 8000 illik bir keçmişə sahib olduğunu söyləyə bildiyimiz İzmir vilayəti, ilk insanlardan başlayaraq, bir çox fərqli mədəniyyət ilə tanış olmuş, bir çox fərqli xalqlara ev sahibliyi etmişdir. Bu səbəbdən mədəniyyətin qurulması fərqli bir şəkildə olaraq, Dünyadakı yerini Zeybek musiqisi ilə təbii olaraq götürmüşdür.

**I fəslin ikinci bölməsi (1.2.) "Zeybək - türk musiqi folklorunun janrı kimi" adlanır.** Türkiyədə oynanan növlərin təsnifatı 11 hissədən ibarətdir: 1-Barlar, 2-Halaylar, 3-Horalar, 4-Horonlar, 5-Karşılamalar, 6-Kaşıklılar, 7-Təkələr, 8-Saray mənşəlilər (Çiftetelli və Köçekçeler), 9-Dini məzmunlular [Samahlar, səmaları] 10 - Koroğlu məzmunlular və 11-Zeybeklər. İzmir vilayətinin bütün bölgələrində rəqs və musiqi olaraq, zeybek növü özünü göstərir.

Zeybek sözünün mənşəyilə əlaqədar ilk tapıntıya, Besim Atalayın [1882-1965] yazdığı "Türk Böyükləri və Türk Adları" adlı əsərdə rast gəlirik. İlk nəşri 1923-cü ilə, ikinci nəşri isə 1935-ci ilə aid olan bu əsərdə, zeybek sözünün özbek sözündən dəyişmə olduğu bir fərziyyə olaraq ifadə edilmişdir. Bu fərziyyəyə qarşı Mahmud Ragıp Gazimihal çıxış etmişdir[1]. Egedə və hətta İzmirin Urla mahalında Özbək adında kəndin olması bu vəziyyəti izah edir. Çünki Zeybek sözü Özbekdən törəmə olsaydı, Özbək sözü bu an heç istifadə edilməzdi.

Gazimihala görə Zeybek sözü özlüyündə türkcə bir sözdür. Cənubi, şərqi və orta Anadoluda sıyıpmak, zıypmak şəklində və qaymaq mənasında istifadə edilir. Bu zıypmak sözü zamanla zıypak şəklində dəyişmiş olub, mənası, Mahmud Ragıp Gazimihala görə "sürüşkən yer, ələ-ovuca sığma-

[1] AKDOĞU Onur, İzmir Karşıyaka Belediye Konservatuvarı Dergisi, Sayı 2/ İzmir, Nisan 1998, s.2.

yan, civə kimi adam" deməkdir. Məhz bu zıypak sözü də zamanla dəyişilərək, zeybek halına çevrilmişdir[1]. Zeybek sözünü etimoloji olaraq araşdıran bir çox tədqiqatçılar olmuşdur. Sözünün əslinin, yəni mənşəyinin saybek sözü olduğu, açıq bir həqiqət olaraq ortaya çıxır. Mənası da, sağlam, qoruyucu deməkdir. Bu söz, Çağatay Türklərində, Türkcənin səs uyğunlaşmasına görə, saybak (şaybak), Hammerdə isə şeybek (seybek) olaraq tələffüz edilmişdir.

Buradan da aydın olduğu kimi, zeybek sözü türkcədən törəyərək və yenə türkcənin öz quruluşuna uyğunlaşaraq dəyişməyə uğramış özlüyündə türkcə bir sözdür. Xalq yaradıcılığı ilə məşğul olan bəzi tədqiqatçıların söylədiyi kimi, bu söz Yunan sözü deyil. Yunanıstanda yaşayanlar türkcə olan Zeybek sözünə Zeybekikos və Abdal (Orta Asiya Xorasandan Anadoluya köçən Türklər) sözünə Abdalikos deyirlər. Pir Sultan Abdal nümunəsi kimi. Yunanıstanda Abdalikos və Zeybekikos ifadə edildiyində isə Türk mənasını verdiyi də məlumdur[2].

Ayrıca Abdal – Türk Dil Qurumuna görə: 1.Səfəvilər dövründə İranda yaşayan Türk oymaqlarından biri; 2.Anadoluda yaşayan Türk oymaqlarından bəzisi deməkdir. Bu şərhlər xaricində isə Zeybek sözü üç ayrı məna ehtiva edir: 1-Zeybek bir adamdır, şəxsdir. 2-Zeybek, ənənəvi Türk Xalq rəqslərindən birinin, bu səbəbdən bir rəqs növünün adıdır. 3-Zeybek, bir musiqi növüdür.

Zeybek sözünün ifadə etdiyi bu mənalardan ən çox birincisinin üzərində durulmuş, rəqslə əlaqədar olan digər mənalar haqqında da az-çox yazılar nəşr olmasına qarşı, bir musiqi növü olaraq, zeybekdən yox deyiləcək qədər az söz edilmişdir. Zeybek adı ilə xatırladığımız adam, bu səbəbdən bu şəxslərin meydana gətirdiyi zeybekler birliyi üçün keçmişdən günümüzə edilən tərif və şərhləri, aşağıdakı kimi yekunlaşdıra bilərik:

Qısa boylu adam. Boynu və boyu qısa olan adam; İzmir ətrafındakı Türk Tayfa sakinlərinə verilən adlar; Yüngül tüfəngli əsgər. Səlcuq dövləti zamanında Teke və Aydın tərəfindən Misirə göndərilən işğalçı əsgər; silahlı və mühafizə asayiş məmuru; köhnə bir əsgər sinfi. Səlcuqlar zamanında belə bir əsgər sinfini təşkil etmiş olan Aydın və Hüdavendigar

---

[1] GAZİMİHÂL Mahmut Râgıp, Yüzyıllar Boyunca Zeybekler, Folklor Postası, cilt 2, İstanbul, 1946, s.14.

[2] EGE ÜNİVERSİTESİ, Devlet Türk Müziği Konservatuarı, Türk Xalq Oyunları Bölümü Alan Araştırmaları Arşivi, Yunan Adaları Araştırması, 2013-2014/ İzmir Araştırmaları, 1985

əhalisi; sanki əsgərlik üçün yaradılmış, Türklərin bir gözəl soyudur. Ümumiyyətlə, bütün Ege ətraflarında və daha çox kəndlərdə, fermalarda yaşayan Türklərə verilmiş addır[1].

Aydın və Bursa vilayətlərinə verilən ünvan. Bəzən qardaş və yoldaş olaraq xitab yerinə istifadə edilir. Yüngül tüfəngli əsgər, Səlcuq dövləti zamanında Teke və Aydın tərəfində yaşayırdılar; İzmir bölgəsində qədim Türk qəbiləsindən olan bir qisim xalq.

Aydın mühitində zeybek təbiri - xalq arasında yayılmış zeybek sözü - dağda gəzənlərə deyilir ki, bunların hər biri hər hansı vasitə ilə dağa çıxmış və başında səkkiz-on adamdan ibarət tərəfdar toplanmışdı. Bunların əksəriyyəti Türk tayfalarına mənsubdur. Vəziyyət və adətləri qədim Türklər kimidir. Bəziləri hökumətə asi olduqları halda, rast gəldikləri heç bir məmur və jandarmaya pislik etməzlər. Ətraf kəndlərdə olan xalqı himayə edərək, xüsusilə qadın və qızlara qətiyyən xəyanət etməzlər, mühitin təsiri ilə daim dağlarda gəzən bu zeybeklər cəsarət və çeviklik və atıcılıkda çox mahir olduqları kimi, basqın etmək və basqından xilas olmaq üçün özlərinə məxsus inancları vardır[2].

Bütün bu mənaların xaricində isə, zeybek sözü külhanbeyi, qoçu mənasında da istifadə edilmiş və hələ də istifadə edilməkdədir. Bəzi qaynaqlara görə qısaca Zeybek Efenin (başçının) buyruğu altında olan gənc olaraq ifadə edilməkdədir[3]. Efe sözünün, zeybeklərin başçısı, yəni ağa mənasında istifadə edilməsinin yanında, Ege bölgəsindəki əli silahlı, davaçı və qoçu şəxslərə də efe deyilməsindən ibarətdir[4]. Zeybeklərdən təhsil görən, silahlı adamlardan ibarət olan gənc şəxslərə, kızan deyilir. Müəyyən bir zaman kızan olaraq zeybeklərdən təhsil gördükdən sonra zeybek sinifinə alınan silahlı kənd cavanı.

Zeybeklər arasında bağlama və cura daşımaq, türkü çalıb söyləmək qədim bir zeybek ənənəsidir. Dövrün şahidlərinə görə, dəstə halında gəzən zeybeklər, mütləq olaraq kürəklərində üç telli bağlama da daşıyardılar. Dağların bu sərgüzəştçi adamları, yaylalarda, yalçın qayalar üstündə,

---

[1] HAYAT ANSİKLOPEDİSİ, cilt 10, Cumhuriyet Gazetesi Yayını, İstanbul, 1936

[2] YÜZBAŞI Ahmed Süvari, Türk İstiklal Harbi Başında Milli Mücadele, Yayına Hazırlayan Prof. Dr. İsmail Aka-Cahit Telci s:68

[3] AKDOĞU Onur, Bir Başkaldırı Öyküsü Zeybekler Tarihi-Melodiyaleri-Dansları, cilt: 1, İzmir, Nisan 2004, s: 34-35-36-37.

[4] AKDOĞU Onur, Bir Başkaldırı Öyküsü Zeybekler Tarihi-Melodiyaleri-Dansları, cilt: 1, İzmir, Nisan 2004, s: 34-35-36-37.

meşələrdə, təpələrdə və ya dərə kənarlarında toplu halında otururlar; bağlamalarını çalar, oynayarlar; əylənərlər; özlərini ovundurardılar. Tez-tez də türkü qoşardılar.

Buradan da aydın olduğu kimi, zeybeklər - tarixi antik çağa qədər uzanmış və Qərbi Anadoluda yaşamış insanlardır. Özünə xas qaydaları, ədalət sistemi, həyat formaları və özünə xas geyim tərzi olmuşdur. Kiçik qruplar halında varlıqlarını davam etdirmişlər. Azadlıq sevən olduqlarına görə, rəhbərlik əleyhdarı olub, silahlı fəaliyyət göstərmişlər. Yenə müstəqillik və azadlıq üçün Milli Mücadilədə (qurtuluş savaşında) ordunun yanında qüvvət dəstəyi vəzifəsi daşımışlar. Mərd, cəsur, igid kimi anlayışlar ilə anılmışlardır. Yaşadıqları yerlərdə sözü şərtsiz dinlənilən, Qərbi Anadolunun xüsusi şəxsləri və qüvvələri olmuşlar.

Qərbi Anadoluda musiqi və rəqs mədəniyyətinin köklərinə zeybeklərin dərin təsiri olmuşdur. Xalq, zeybeklərə ithafən musiqi və oyunlar yaratmışdır. Bu mədəniyyət o qədər dərin təsirə malik olmuşdur ki, zamanımızda da hələ davam etməkdədir.

Zeybeklərin musiqidə janra çevrilməsinin əsas amilləri. Coğrafiya, iqlim, bitki örtüyü, canlıların da mədəniyyətə təsir etməsi və bölgədəki insan həyat şərtlərinin zeybeklərin nizamına təsiri nəticəsində, zeybek rəqs və musiqisi də ortaya çıxmışdır. Zeybeklik qurumunun bir hissəsi kimi Zeybek rəqsləri və zeybek musiqisi ayrıca iki cəhətdən növ olma xüsusiyyətinə malikdir. Rəqslərin və musiqisin özünə xas xüsusiyyətlərinə görə, zeybek deyildiyində rəqs və musiqi olaraq da qavranılmalıdır.

Janr - dəyişməz qanunlara, amillərə malik faktlar üçün istifadə edilən bir termindir. Musiqidə janr deyilirsə, o janrla bağlı dəyişməz musiqi qanunlarının olduğu başa düşülməlidir. Bu musiqi qanunları ənənəvi türk xalq musiqisində ümumiyyətlə, düzüm (ritm), makam və tavır - tərz elementlərindən ibarətdir. Bu baxımdan, ənənəvi türk xalq musiqisində bir çox növlər vardır. Ənənəvi türk xalq musiqisində iştirak edən ən əhəmiyyətli musiqi növlərindən biri də zeybekdir. Yəni, zeybek, ənənəvi türk xalq musiqisinin bir alt növüdür. Başqa sözlə desək, zeybek janrının dəyişməz qanunları vardır. Bu maddələrin ən əhəmiyyətlisi isə, ritmik quruluşdur.

Zeybek janrını meydana gətirən amillər: doqquz zamanlı ölçü içərisində ən az iki vurğunun olması, zeybek tərzinin çalğı alətlərində səsləndirmə şəkillərinin olması, müəyyən aralıqda olan sürət, yəni temp xüsusiyyətinin nəzərə çarpan olması, ritm quruluşunun müşayiətçi alətin ritmi ilə fərqliliyinin olmasıdır.

Zeybek musiqisinin, türk musiqisində nə cür əhəmiyyətli və fərqli bir yer tutuğunu asanlıqla söyləyə bilərik. Yalnız Ege bölgəsində rast gəldiyimiz zeybek musiqisində, vilayətlər arasında belə düzüm fərqlilikləri özünü göstərir ki, bu vəziyyət onun mədəni zənginlik baxımından nə qədər əhəmiyyətli olduğunu sübut edir. Sözgəlişi demək olar ki, çalınma baxımından Aydın vilayəti ilə İzmir vilayətinin melodik və ritmik düzümlərindəki fərqlilik dərhal gözə çarpır. Hətta daha da təəccüblüdür ki, İzmir vilayətinin mahalları arasında belə bir fərqlilik və ya xüsusiyyət qarşımıza çıxır. Bu fərqliliyi də üslub adlandırırıq. Başqa bölgələrdə zeybek adı ilə icra edilən melodiyalara da zeybek çeşnisi deyirik.

Zeybek musiqisi, ritmik ölçüsünə görə 9/2-lik, 9/4-lük ve ağır 9/8-lik olaraq özünü göstərir.

Zeybek musiqisinin janr xüsusiyyətlərini təyin edən elementləri bu şəkildə ifadə etmək olar:

1 - Yalnız Qərbi Anadoluda icra edilməsi,

2 - ölçünün 9 zamanlı olması, 8-lik, 4-lük və 2-lik vahidlərə malik olması; digər bölgələrdəki 9 zamanlılardan fərqli olaraq, ən az iki vurğuya malik olması,

3 - Yalnız zeybekliyə aid olan ritmik və melodik düzümlərin olması, ənənəvi türk xalq musiqisində zeybek tavırının, yaranma baxımından məlumatın olması,

4 - Tempinə görə Largo-Moderato arası olmasıdır.

Oyunlarda, musiqidə daha çox sevgi, həsrət, ayrılıq və döyüş kimi mövzuların işlənməsinə rast gəlinir. Ayrıca zeybeklərin adlarına uyğun yaranmış olan türkülərdə də qəhrəmanlıqlar izah edilir. Bu fərqliliklər zeybekin janr kimi formalaşmasında bəlkə də ən əhəmiyyətli göstəricidir. Çünki o bölgəyə aid olan bir vəziyyətdir. Zeybeklik qurumu və zeybekliyə aid rəqslər, musiqi ayrıca xalq tərəfindən zeybeklərə ithaf edilmiş rəqslər və musiqi eyni tavırda eyni duyğu və düşüncə ilə deyilmiş və deyilməkdədir. Bu ənənə bir bölgədə asanlıqla rast gəlinə bilən bir vəziyyət deyil.

Ağır zeybek - xüsusilə İzmir, Aydın, Muğla və Dənizli vilayətlərində 9/2-lik və 9/4-lük ölçülərlə [3 +2 +2 +2, 2 +3 +2 +2, 2 +2 +2 +3, 3 +3 +3 tipində] məşhur bir şəkildə ifa olunan və Largo-Largetto-Adagio-Andante templərində oynanır. Ağır zeybek deyilməsinin təyinedici xüsusiyyəti templərinin yavaş olmasıdır.

Kıvrak zeybek - xüsusilə Ege bölgəsində 9/8-lik ölçülərlə [3+2+2+2, 2+3+2 +2, 2+2+3+2, 2+2+2+3 tipində] məşhur bir şəkildə icra olunan və

Largetto-Adagio-Andante-Moderato-Allegro templərində oynanan zeybek növünün bir alt növüdür. Kıvrak zeybek deyilməsinin təyinedici xüsusiyyəti templərinin, ağır zeybeklere nəzərən, daha sürətli olması, ritm quruluşunun daha diqqətə çarpan, yəni düzümlərin müəyyən bir qəlibdən olması və ritmik quruluşun tez qəbul edilməsi kimi xüsusiyyətinin olmasıdır.

**Dissertasiyanın II fəsli "Torbalı bölgəsində zeybeklər üzrə sahə araşdırmaları və təhlillər" adlanır. Bu fəsil üç bölmədən ibarətdir: 2.1. "Göllüce köyü"; 2.2. "Orman köyü"; 2.3. "Helvaçı köyü".** Aparılan bu sahə araşdırmasının məqsədi İzmir vilayətinin Torbalı bölgəsinin musiqi mədəniyyətinin, İzmirin digər bölgələrindən fərqli cəhətlərini təsbit etməkdən ibarətdir. Bundan başqa, həmin araşdırmalar Ege Universiteti Dövlət Türk Musiqisi Konservatoriyasının Türk Xalq Oyunları bölməsinin arxivində yerini alaraq, üzərində çalışdığımız doktorluq dissertasiyasında məqsədəuyğun şəkildə istifadə olunmuşdur.

Araşdırmalarımız Torbalının Göllüce kəndində, 7 Noyabr 2012 tarixində, Orman kəndində 27 Noyabr 2012 tarixində və Helvacıköyündə 4 dekabr 2012 tarixində keçirilmişdir. Aparılan araşdırmalarda Torbalının xalq musiqisi və ənənələrilə əlaqədar məlumat toplanmışdır. Toy adət-ənənələri haqqında məlumatlı şəxslərlə (qaynaq, informator) söhbət edilmiş və danışığın yayılmasında texniki vasitələrdən istifadə edilmişdir. Müsahibələr deşifrə edilərək yazılmış, musiqi nümunələri notlaşdırılmış və məlumat təhlil edilərək yekunlaşdırılmışdır.

**Fəslin birinci bölməsi (2.1.) "Göllüce köyü"nün toy mərasimlərinin araşdırılmasına həsr olunmuşdur.**

Göllüce köyü 1947-ci ilə qədər inzibati cəhətdən Tire mahalına, ancaq 1947-ci ildən Torbalı mahalına aid edilən Abdal tayfasının məskunlaşdığı kəndlərdən biridir. Köhnə adı Abdallar olaraq yaddaşlarda yaşayır. Abdal tayfasının nə vaxt və haradan buraya yerləşdiyi tarix qəti olaraq bilinmir, lakin XIX əsrin əvvəllərində məskunlaşdığı təxmin edilir. Abdal tayfası Alevi (Şiə) inancına sahib olub Kara Yağış ocağına bağlıdırlar. Fethiye, Konya, Antalya, Kırşehir bölgələrində eyni tayfanın eyni Alevi (Şiə) ocağına bağlılıqları müşahidə olunur.

Tayfa mənsubları daha çox davul, zurna, yəni bir mənada musiqi işləri ilə məşğul olmuş, bu iş ənənəvi olaraq ailəlikcə nəsildən-nəslə davam etdirilməkdədir. Bu gün kənddə musiqi ilə məşğul olan ailə az qalmışdır.

İzmir tərzinin meydana gəlməsində abdalların çox böyük bir əhəmiyyəti vardır. Aydın vilayətinə qonşu olan Torbalı bölgəsi qətiliklə İzmir tərzi

içərisində qalmağı bacarmış, Torbalıda ayrı çalma texnikaları ilə, Torbalı bölgəsinin xüsusiyyətləri ortaya çıxmışdır. Göllüce Köyü Abdal kəndi olmasına baxmayaraq, Aydın vilayətindəki Abdal tərzindən bəhrələnmişdir ki, bu da tədqiqatımızda üzə çıxan nəticələrdən biridir.

Abdalların yaşadığı Göllüce kəndində toy ənənəsi və zeybek musiqisi ilə əlaqədar apardığımız araşdırmanın nəticəsində bu bölgədəki toyların beş hissədən ibarət olduğu müəyyən olunmuşdur. Bunlar: "Oturaq havası", "Yol havası", "Gəlin alma mərasimi", "Qədim yol havası", "Oyun havası"dır.

1."Oturaq havası" - Toy evində yemək yeyilərkən, içki içilərkən çalınan və oxunan uzun hava növündən türkülərdir. "Oturaq havası"nın məqsədinin insanlar arasındakı ünsiyyəti gücləndirmək olduğu deyilmişdir. Məhəbbətin daha zövqlü olması üçün insanların bir-birlərinə söylədiyi, əlaqələri daha da gücləndirən uzun havalar olduğu ifadə edilmişdir. Uzun havalar - Türk xalq musiqisinin bir növüdür. Sərbəst ölçülərdə, tartımsız (ölçüsüz) olaraq söylənən sərbəst türkülərdir.

Göllüce kəndində başlıca olaraq söylənən oturaq havalar isə bunlardır: "Gündüz Beyi" (Avşar Bəyləri), "Aşıq Qərib", "Aşıq Kərəm", "Yəmən elləri", "Duman vardı şu dağların başında", "Bayındır koşması".

"Gündüz bəyi" uzun havası və "Aşıq Qərib" uzun havası Torbalı, Ödəmiş, Tire və Bayındır bölgələrində də söylənilir. Bölgədə oturaq havalarından ən çox söylənən türkülərdəndir. Xüsusilə Ege bölgəsində bu cür uzun havalara "qürbət" (gurbet) adı verilmişdir, həm instrumental (çalgısal), həm də vokal - sözlə oxunan (*sözel*) musiqidir.

"Oturak havaları" çalındıqdan sonrakı ikinci mərhələ olan "Yol havası" gəlini almaq üçün yola çıxanda çalınan ritmik türkülərdir. Bunlar "Cəzairi", "Cezayir" və ya "Cezayeri" deyilən, adları fərqli, amma melodiyaları eyni olan türkülərdir. Türkiyə daxilində məşhur olan "Cezayir Türküsü", bölgədən-bölgəyə, melodiya və məzmun baxımından fərqlənir. Bu nümunə Torbalıya aid bir yol havası olub, Ege bölgəsində müşahidə olunan digər yol havalarına yaxındır.

"Gəlin alma" mərasimi (Gelin Alma Töreni) "Yol havası"ndan sonra reallaşan üçüncü hissədir. Damat (kürəkən) evindən yola çıxan bəyin yaxınları, gəlini kürəkən evinə aparmaq üçün, at gətirirlər. Gəlin atasının evindən çıxır və bəzəkli ata mindirilir. Sonra "Gəlin ağlatma havası" evindən ayrılan gəlini cəsarətləndirmək və ruhlandırmaq üçün icra edilir. Bu nümunə Torbalıya aid uzun hava olub, Ege bölgəsində yayılmış "gəlin ağlatma" havalarına bənzərliyi özünü göstərmir. "Gəlin alma" mərasimində

söylənilən türkülər: "Uzun olur gəmilərin dirəyi", "Çekin Kır atımı" və ya "Gelin ağlatma havası"dır.

"Qədim yol havası" (Eski Yol Havası) – Gəlin alındıqdan sonra gəlinin kürəkən evinə aparılarkən dönüş yolunda çalınan türkülərə aiddir. "Qədim yol havası" adını almasının səbəbi gedilən yolun geriyə dönüşünü ifadə etməsidir, başqa sözlə desək, gedilən yolun dönüşünə, "Qədim yol havası" deyilir. "Cəzairi" adlandırıldığı təsbit edilmişdir. Torbalıya aid bu yol havası Ege bölgəsində özünü göstərən digər yol havalarına oxşardır.

"Oyun havası" - son bölümdür, gəlinin bəy evinə gətirildiyi və gəlin atından enmədən əvvəl bəyin atasının və anasının zeybek oynadığı hissədir. Toyun əyləncə hissəsinin başlanması üçün edilən toy başlatma hərəkətidir.

Ümumiyyətlə, başlanğıc üçün oynanan oyunun adı "Bergama Zeybegi"dir. Göllücədə topladığımız və oyun havası hissəsində oynanan zeybeklərin adları isə "Ayvalık Zeybegi", "Ödemiş İki Parmaq Zeybegi", "Ödemiş Kocaarap Zeybegi", "İnce Memed Zeybegi", "Bakırlı Zeybegi", "İzmir İki Barmaq Zeybegi", "Kuruoğlu Zeybegi" və "Gamaroğlu Zeybegi"dir. Bu zeybeklərdən əlavə, digər bölgələrdəki zeybeklər də çalınır.

Torbalı bölgəsinin tərzini və üslub fərqini bu hissədə görürük. Uzun davamlı səslərin və xırdalıqların birlikdə uyğunlaşması, adı keçən zeybeklərdə açıqca görülnür və inkişaf etdirilir. Özünəməxsus nizamda yaşayan zeybek mədəniyyətinə, Yörük mədəniyyətinin qarışması ilə meydana gəlmiş bir üslubdur. Notlardakı uzun səslər zeybekliyi, xırdalıqlar isə yörüklüğü müəyyən edir. Abdallar tərzində çalınan uzun davamlı səslər ayrıca hüznü, məğrur olmağı və cəsarəti izah edir. Qıvraq çalınan xırdalıqlar isə sevinci və əyləncəni ifadə edir.

Torbalı bölgəsində aparılan sahə araşdırmalarına əsaslanaraq, qaynaq şəxslərlə etdiyimiz danışıqlar nəticəsində [mənbə adam İbrahim Ceylan] bölgə zurna sənətçilərinin zurna çalğı alətlərini İzmirdə deyil, Aydın vilayətində düzəltdirmələri də ayrıca üslubun fərqlənməsinə səbəb olmuşdur.

Torbalı bölgəsində, İzmirdə "si" [B] zurnadan istifadə edilir. Tezliyin eyni, ancaq səs boyalarının fərqli olması üslub xüsusiyyətlərindən biridir. Çıxan tezlik və makam tutuş pozisiyaları və s. üslubun ayırd edilmə nöqtələrindən biridir. İzmir zeybek tərzinin 6 fərqli üslubdan meydana gəldiyini söylədiyimiz İzmirin Torbalı bölgəsində 7 üslub ortaya çıxmışdır.

İzmir zeybek musiqisində, iki əhəmiyyətli tərz olduğunu daha əvvəl ifadə etmişdik. Selanik tərzi və Abdal tərzi. Bu iki tərz, İzmir Zeybek musiqisinin meydana gəlməsinin ən əhəmiyyətli xüsusiyyətidir. Göllücədə

təhlillərimiz nəticəsində, Abdal tərzini aydın surətdə görürük. Bunun səbəbi isə çox açıq bir ifadə ilə, kəndin Abdal Köyü olmasıdır. Ayrıca məskunlaşıb yaşayan və zeybek mədəniyyəti olan bölgəyə, Yörüklərin köç etməsilə müəyyən bir mədəniyyətin daşındığı da görünməkdədir. Bu vəziyyətdə Göllücədə yaşayan yerli xalqın yanında, Abdalların musiqi təsiri və Yörük ənənələrinin də zeybek mədəniyyəti ilə qarışığından Torbalıda xüsusi bir üslub meydana çıxmışdır. Torbalının Aydın vilayətinə yaxın olmasına baxmayaraq, musiqidən təsirləndiyi, ancaq tərz olaraq, qəbul etmədiyi müşahidə edilmişdir.

Özünəməxsus zeybek rəqsləri və özünəxas zeybek musiqisinin olması ilə yanaşı, ayrıca musiqisi İzmir tərzində olub, bölgənin öz üslubunun da meydana gəlmiş olması etibarilə, Torbalı mahalının, İzmirin 7 bölgəsindən biri olduğunu göstərməkdədir. Bu mənada, Göllüce Köyü toplama çalışması bizim üçün çox əhəmiyyətli bir təsbiti təmin edərək faydalı olmuşdur.

**Dissertasiyanın II fəslinin ikinci bölməsi (2.2.) "Orman köyü"nün musiqi folkloru ilə bağlıdır.**

Bu gün Torbalı mahal mərkəzindən 21 km. uzaqlıqda olan Ormanköyün tarixi ilə əlaqədar əlimizdə bu an üçün sənəd olmamasına baxmayaraq, adı ilə əlaqədar şifahi izahatlara söykənərək bilinən ilk adı "Cenkile"dir. Cenk sözünün lüğəti mənası "döyüş / hərb" mənasını bildirir. Zamanla xalq arasında daha asan deyildiyi üçün "Çengele"yə çevrilmişdir. Ancaq son araşdırmalarda kəndin əsl adının 24 oğuz boyundan biri olan "Yıva" boyunun "Dirmilli" qrupunun "Teke Türkmənləri" tayfasının "Çengellü" camaatından olduğu ortaya çıxmışdır[1].

Region ilk çağlardan bəri insanların məskunlaşmasına açıq bir yerdir. Bunu dəfinə axtaranların bölgədə daha əvvəl etdikləri qaçaq qazıntılardan və olan məzarlardan anlayırıq. 1961-ci ildən sonra bir çox kəndin adı da dövlət tərəfindən dəyişdirildiyi üçün bu kəndin adını da dəyişdirmək istəmişlər. Kəndlilərin, kəndin su qaynağı olan pınara(bulağa) izafətən, adın "Pınarbaşı" olaraq verilməsi istəyinə baxmayaraq, ətrafının şam ormanları ilə çevrələndiyinə görə "Ormanköy" adı verilmişdir. Bu ad daha yeni-yeni mənimsənməyə başlamışdır. Qədim sakinlər hələ də Çengele adını istifadə edirlər.

Ormanköy kəndi oyun musiqisinin təsbiti və təhlili. İndiki vaxtda mədəniyyətimizə aid olan ənənə və adətlərin tətbiqinə şahid olduğumuz mərasimlərdən biri toy mərasimləridir. Ormanköydə edilən bu sahə

---

[1] HALAÇOĞLU Yusuf, Anadolu'da Aşiretler, Cemaatler, Oymaklar [1453-1650], Ankara, TTK, C.2,s.526.

araşdırmasında, toy mərasimlərində bölgəyə aid ənənə və adətlərin hələ də yaşadıldığı söylənmişdir. Bunların üzərində edilən təsbit işlərimiz aşağıdakı kimi olmuşdur.

Ormanköydə toy mərasimlərində qadınların xına gecələrində öz-özlərinə əyləncə təşkil etməklə, özlərinin çalıb-oynadıqları qeyd olunmalıdır. Xına gecələri cümə günündən başlayıb bazar gününə qədər üç gün davam edir və dümbəklərin müşayiətilə türkülər söylənilir. Eyni şəkildə kişi əyləncələri də üç gün boyunca davul-zurna dəstələrinin müşayiətilə keçirilir. Qadın əyləncələrində dümbək çalmağın, oynamağın, manilər, türkülər söyləməyin ənənə olduğunu deyən qaynaq şəxslər, fikirlərini bu şəkildə dilə gətirmişlər: Birinci gün toy odununun gəldiyi, kimin evində dümbək çalınacağına qərar veriləcəyi, ümumiyyətlə kimin evi genişsə o evdə qadınlar əyləncəyə başlayır. Qadın əyləncələrinin gəlinin yengəsinin başlatdığı, əgər yengə yoxsa gəlin tərəfindən ən yaşlı birinin oynadığı göstərilmişdir. Ənənədə dümbək olmadığı zaman, qadınların taxta qaşıqlarla şüşələrə vuraraq ritm tutub, türkülər söylənildiyi də qaynaq şəxslər tərəfindən dilə gətirilmişdir.

Araşdırmamızda təsbit edilən əhəmiyyətli bir xüsus, dümbəkçilər bəzən bilinən türküləri, bəzən də o an inkişaf edən improvizə türkülərlə müşayiət edirlər. Oynamağa çıxan adamın üzərindəki paltarlar belə ilham qaynağı olur. Kimi zaman corabından, tərliyindən, dairəsindən, donundan, kazağından, motivlərindən mani qoşur. Türkünün musiqisi eyni ikən, sözlərdə adama görə dəyişiklik özünü göstərir. Dümbəkçilərdən biri sözə başladığı zaman digəri də onu müşayiət edir.

Ormanköyündə etdiyimiz araşdırmanın nəticəsində, bu bölgədəki qadın əyləncələrinin üç hissədən meydana gəldiyi müəyyən olunmuşdur, bunlar:

1. Düz Oyun Havaları: Özünəməxsus janr xüsusiyyətlərinə malik olan oyun havalarıdır ("Dalğalı Sürmeli", "Sepetçioğlu", "Nina"lar kimi). Ayrıca, "nina" və ya "ninna" olaraq istifadə olunan bir termin var. "Nina" əslində melodiyanın söylənə bilməsi üçün istifadə edilən bir sözdür. "Ninna ninna", "Dalğalı Sürmeli", "Yandım Ayşem", "Kadife boyanırmı", "Sepetçioğlu" - Torbalı xüsusiyyətini daşıyan türkülərdir, Torbalıya aid və zeybek növünün alt növü olan zeybek qadın düz oyun havalarıdır.

2. Çeşit oyun havaları: başqa bölgələrə aid olan oyun havalarıdır. Bunlar başqa bölgələrdən gələn ənənə olduğu üçün, oyun oynana bilən hər cür sürət özünü göstərir.

3. Erkek oyun havaları: Kişilərin oynadığı Zeybek oyunlarının qadınlar tərəfindən oynandığı oyun havalarıdır. "Harmandalı Zeybegi", "Kerimoğlu Zeybegi", "Koca Ərəb Zeybegi" kimi bilinən zeybeklər oynanılır.

"Harmandalı" - Ege bölgəsində görülən digər Harmandalı Zeybekləriylə bənzərlik göstərməkdədir. Musiqinin orijinalı İzmir vilayətinə aiddir, ancaq Ege bölgəsinin digər vilayətlərində də oynanılır. Zeybek mədəniyyətinin ən məşhur zeybeyidir. Adı dəyişməmiş və hər yerdə Harmandalı olaraq tanınır. Ən əhəmiyyətli tapıntılarımızdan olan və sözsüz olaraq bilinən, "Harmandalı" Zeybegi burada şifahi olaraq icra edilmişdir. Orman kəndi Qadın Harmandalısı olaraq adlandırılmaqdadır.

Ormanköydə gəlinə xına yaxma zamanında, gəlin ağlatması mərasimi icra edilir. Zəruri bir ritual olan "gəlin ağlatma" gəlinin ağladılması üçün icra edilən bir ənənədir. İnanca görə, gəlinin ağlaması, ailəsinə bağlılığını göstərməsi, ayrılma hüznünü və yeni yuva qurarkən xoşbəxtlik gözyaşı axıtması baxımından əhəmiyyətlidir və zəruri bir mərasimdir.

Ümumiyyətlə, haqqında danışdığımız "gəlin ağlatma" türküləri Torbalıya aid "Çekin Kıratımı" və digər bölgələrdə məşhur olmuş, "Uzun olur gemilərin direği" türküsüdür. Bu türkü bölgə xaricindən olduğu üçün, biz onu nəzərə almamışıq. "Çekin Kıratımı" - Torbalı xüsusiyyətini daşıyan türküdür, Torbalıya aiddir və ağıya oxşardır. Bu türkünün, eyni zamanda, gəlin ata minərkən davul-zurna müşayiəti ilə də səslənməkdə olduğu ifadə edilmişdir. Bu ifadənin doğruluğu, Göllüce Köyü işində təsbit edilmişdir.

Ormanköydə qadınlar ümumiyyətlə özlərinə görə mani qoşaraq sözlə oxunan hala gətirdikləri kişi oyunlarını oynamaqdadırlar. Əslində, qadınlar, kişi oyunlarını qadın oyunları şəklinə çevirmişlər. Bu vəziyyət də araşdırmamızın əhəmiyyətli bir nəticəsidir. Əyləncələrdə çalınan türkülərə deyilən maniləri qadınlar oynayaraq müşayiət edirlər. Oyun oynama məqsədlərindən biri də, oğluna qız seçən qayınana və ya evlənmək istəyən gənc qızların özlərini göstərməsidir. Məsələn, oyuna qalxan bir gənc qızı bəyənən oğlan anası tüfəng / tapança səsi təqlidi edərək, "Yaşasın qızım, yaşasın, Civ Civ civ" deyə qışqıraraq qıza talib olduğunu bildirər. Bu ənənənin adı da "bismillah ayaq atma"dır. Xına gecəsində, çalıb oynandıqdan sonra, gəlinə dəstəmaz aldırılır və orta yerə oturdularaq, gəlin ağlatma mərasiminə başlayırlar.

**II fəslin üçüncü bölməsi (2.3.) "Helvaçı köyü"nün musiqi folkloruna həsr olunmuşdur.** Torbalı mahalından təxminən 23 km. uzaqlıqda olan Helvacı kəndi, Ormanköy, Bozköy kimi məskunlaşma yerini dəyişdirən kəndlərimizdəndir. Kəndin ilk quruluşu ilə əlaqədar olaraq

ağsaqqalların izah etdiyi kimi, kəndin daha öncədən "Öteköy" deyilən yerdə qurulmasıdır. Ancaq kəndin olduğu yer Bayındırdan İzmirə gedən yolu qısaldan karvan yolunun üzərindədir. Kənd yerini dəyişdirdikdən sonra hələ də kənddə olan üç quyu ilə əlaqədar olaraq, "Üçkuyular" şəklində dəyişdirilmişdir. Lakin bir müddət sonra kəndə halva emal edən bir ustanın gəlməsi və Helvacı dükanını açması ilə əlaqədar olaraq, bu illər ərzində adı Helvacı kənd olaraq dəyişdirilmişdir. Kənddə izah edildiyi kimi, xüsusilə bu Helvacı dükanı dəvə karvanlarının görüşmə və fasilə vermə yeri olaraq ətrafda səs salmağa başlamışdır.

Helvacı kəndi təxminimizə görə 1750 və ya daha sonra qurulan kəndlərimizdən ola bilər. Belə ki qəbiristanlıqdakı ən köhnə məzardaşı kitabəsi 1197-ci ilə, yəni miladi 1781-ci ilə aiddir. Bölgə meşəlik olduğu üçün və iqtisadi quruluş heyvandarlığa uyğun olduğu üçün Yörüklerin qurduğu bir kənddir. Digər tərəfdən, kənddə Tire mənşəli xeyli izdihamlı bir ailə birliyi vardır. Təxminimizcə, bu ailələr bir səbəbdən kütləvi olaraq Tireden kəndə gəlmişlər. Əhalinin qeydiyyatında bu ailələrin doğum yerləri həmişə Helvacı kənd yazıldığına görə, bu köç dalğasının 1800-cü illərin başında olması təxmin edilir. Helvacı adında Ege bölgəsinin dəyişik yerlərində də bəzi məskunlaşmalara rast gəlirik. Helvacıköy araşdırmasının ən təəccüblü tərəfi, Göllüce və Ormanköy ənənə və adətləri qarışığının qarşımıza çıxması olmuşdur. Helvacıköydə aparılan sahə araşdırmasında, toy mərasimlərində bölgəyə aid ənənə və adətlərin hələ də yaşadıldığını görürük.

Bu araşdırmamızda qadın ənənəsi və ümumiyyətlə, toylarda söylədikləri türkülər üzərində dayanmışıq. Qadınların əyləncəsində dümbəkçi adı verilən qadın çalğıçılar, toy yerində oyun havalarını - xına ağısını və türküləri dilə gətirir. Dümbəkçilər Gülfer Günəş və Xədicə Tetikin verdiyi məlumatlara görə, əyləncəyə yaşlı qadınların oyunları ilə başladığını qeyd etməliyik ki, bu ənənəni Ormanköydə də müşahidə etmişik. Sırayla qonaqların, çeşit oyunu və ya adam oyunu deyilən oyunların oynandığı söylənilmişdir. Daha sonra gəlinə xına yaxıldığı və gəlin ağlatması ifa edildiyi bizə qaynaq şəxslər tərəfindən çatdırılımışdır.

Dümbəkçi qadınlar, dümbək çalmağı və türkü söyləməyi analarından, xalalarından öyrənmişlər. Bu vəziyyətdə Ormanköy ilə bənzərlik özünü göstərir, qaynaq şəxslər, Helvacıköydə də eynilə Ormanköydki kimi qadın əyləncələrinin yaşlılar tərəfindən başladıldığını söyləmişlər.

Qədim zamanlarda toyların Çərşənbə günü başlandığı deyilir. 3 gün davam edən toy indiki zamanda yerini şənbə və bazar gününə buraxmışdır.

Bunun səbəbinin isə 1970-ci illərdən etibarən, dağ kəndlərində dolanışıq çətinliklərinə görə xüsusilə Torbalı və ya İzmirə çalışmaq üçün gedən çox ailələrin olması, toyların gününün dəyişdirməsinə səbəb olmuşdur. Ayrıca dümbəkçi qaynaq şəxslər müasir çalğıların çıxmasından bəri, toylara daha az gedə bildiklərindən bəhs edirlər. Qədim zamanlarda Bazar günü edilən düyünlərə "dulkarı toyu" deyilirdi. "Dulkarı" - ikinci dəfə evlilik edən qadınlara aid bir addır. Yalnız Bazar günü edilən bir günlük toylara deyilir. Adətlərin yavaş-yavaş dəyişdiyi müəyyən edilmişdir.

Əyləncənin eynilə Göllücədəki kimi "oturan havaları" ilə başladığı, uzun havaların oxunduğu, daha sonra yaşlıların əyləncəni başladaraq, Ormanköydəki kimi Düz Oyun (Torbalıya aid oyunlar), Çeşit Oyunları (Torbalıya aid olmayan oyunlar), Adam Oyunları (Zeybeklər) oynandığı izah edilmişdir. Yenə digər iki kənddəki kimi əyləncənin ortasında xına mərasimi keçirildiyi və gəlin ağlatması edildiyi deyilir. Gəlin ağlatmasında "Çekin Kıratımı" və ya "Mehmet Çavuş" türküsünü söylədiklərini söyləmişlər. Ayrıca Koroğlu oyununun da olduğu ifadə edilmişdir. Bu oyunu kişilərin əllərində bıçaqlarla, qadınların isə taxta qaşıqlarla oynandığı bildirilmişdir.

Helvacıköy - Göllüce Köyü və Ormanköy kimi, ortaq bir ənənə daşıdığından, tədqiqatı gücləndirən bir sahə araşdırması olmuşdur. Aydın vilayətinə aid türküləri də yaşadan, lakin İzmir ağzı ilə türküləri səsləndirən, İzmir tərzində olan bir kənd kimi qarşımıza çıxır. Yörüklerin və Abdalların təsiri musiqidə nəzərə çarpır. Bu bölgədə toya başlamadan və oyunlar oynanılmadan əvvəl "oturaq havası" deyilən daha bir mərasim qarşımıza çıxır. Məhz bu nöqtə Abdal kəndi olan Göllüce ilə bənzərlik göstərməsi baxımından maraqlıdır. Helvacı Köyündə qadın əyləncələrində istifadə edilən türkülərin təsbitləri isə aşağıdakı şəkildə olmuşdur.

"Çekin Kıratımı" - Torbalı xüsusiyyətini daşıyan türkü, Torbalıya aid olub, ağıya oxşardır. Bu türkünün eyni zamanda gəlin ata minərkən davul-zurna müşayiətilə söylənilməkdə olduğu müəyyən edilmişdir. Bu ifadənin doğruluğu, Göllüce Köyü və Ormanköyü üzrə araşdırma işində təsbit edilmişdir. "Mehmet Çavuş" - uzun havası yalnız Helvacıköydə ifa olunur. Qaynaq şəxs Gülfer Günəş, bu mahnını özünün qoşduğunu söyləmişdir. Xüsusilə Ege bölgəsində bu cür uzun havalara "qürbət" adı verilmişdir.

"Şu dalmanın amman" - Ege bölgəsində yayılan digər türklülərlə eynidir. Musiqinin orijinalı Aydın vilayətinə aiddir. "Eğmeli Fese Eğmeli" türküsü - Ege bölgəsində yayılmış digər türklülərlə eynidir. Musiqinin

orijinalının Aydın vilayətinə aid olduğu məlumdur. Zeybek janrının alt növü olan zeybek qadın düz oyun havasıdır. "İzmirin kavakları" - Ege bölgəsində görülən digər türklülərlə eynidir. Uzun davamlı səslər və xırdalıqlar bərabərdir. Musiqinin orijinalı İzmir vilayətinə aiddir. Zeybek növünün alt növü olan, zeybek-qadın düz oyun havasıdır. Qaynaq şəxslərin verdiyi məlumata görə, ayrıca, "İzmirin kavakları" mahnısından, bilinən sözlərin xaricində öz manilərini də uyğunlaşdıraraq, tam fərqli sözlərlə deyilən bir türkü halına gətirmişlər. Buradan da türkülərin variant zənginliyinə uğradığını görə bilərik. Bu vəziyyətin əhəmiyyətli bir tapıntı olduğunu düşünürük.

Torbalının digər kəndlərində olduğu kimi, Helvacı kəndində də "Gəlin Ağlatma" mərasiminin olduğu, xüsusilə gəlinin ağlaması təmin olduğu, "Çekin Kıratımı" türküsündən "Gəlin ağlatma"da istifadə olunması onun bölgədə ən məşhur türkü olduğunu ifadə edir. Oyunların növləri kimi, bölgəyə aid olmayan türkü növləri də, gəlin ağlatmasında istifadə olunduğu haqqında məlumat bizə qaynaq şəxslər tərəfindən söylənilmişdir. Qadınların ənənələrində bir də yuxarıda bəhs etdiyimiz oyunlar da ifa olunur, bunlardan bəzilərinin "Harmandalı Zeybegi", "Nalbandım", "Yandım Aişə" və "İncə Mehmet" olduğu ifadə edilmişdir. Bu oyunlar Ormanköyə aid oyun musiqisi deyil. Geniş istifadə olunan musiqidir.

Zeybek bölgələrinin hamısında ümumiyyətlə, kişi oyunları sözsüzdür. Qadınlar isə sözsüz olan melodiyaları "ni-na" sözləri ilə söyləyirlər. Ormanköydəki tədqiqatlar nəticəsində, bəhs etdiyimiz kimi, sözsüz olaraq tanınan kişi oyunu "Harmandalı Zeybegi" Helvacıköydə sözlü olaraq söylənmiş və təsbit edilmişdir. "Harmandalı", "Dalğalı Sürmeli", "Sepetçioğlu" - Orman Köyü havaları ilə eynidir. "İnce Mehmet" zeybeyinin musiqisinin orijinalı İzmir vilayətinə aiddir. Torbalı xüsusiyyətini daşıyan "İncə Mehmet Zeybegi", Torbalıya aid və zeybek növünü əks etdirən, qadınların oynadığı bir zeybekdir.

Gülümsər Tucal adlı qaynaq bu bölgədə oynanan oyunların başında gələn Koroğlu oyunundan bəhs etmişdir. Koroğlu oyununu babasının oynadığını söyləyən qaynaq, oyunu bu kənddə qadınların da oynadığını söyləmişdir. Əslində Koroğlu oyununu əsasən kişilər oynamaqdadır fikri burada etibarlı deyil. Bilindiyi kimi, Koroğlu oyunu və musiqisi ölkəmizin hüdudlarından kənarda da məşhurdur.

"Koroğlu" türküsü bütün yurdda geniş yayılmış "Koroğlu" nəğmələri ilə eynidir. Lakin məlumat topladığımız şəxslərdən biri olan Necat Çətin

Koroğludan bəhs edərkən, Torbalıda yaşamış olan başqa bir Koroğlu olduğundan danışmışdır. Onun açıqlaması eynilə bu şəkildə olmuşdur: "Buradakı Koroğlu Bolu Bəylə birgə adı keçən Koroğlu deyil. Bu bölgədəki Köroğludur. Çünki Gülfer xalanın atası Camal Sürselan da bir zeybekdir və öz dəstəsi vardır. Koroğlu ilə birlikdə çetelik etmişlər. Buna görə bizim türküdə igidlikdən və zeybeklikdən bəhs edilir". "Yörük Ali" zeybeyinin musiqisinin orijinalı Aydın vilayəti Alevilərinə aiddir. Zeybek növünü əks etdirən, qadınların adam zeybegi olaraq oynadığı bir zeybektir.

Dissertasiyanın **Nəticə** bölməsində tədqiqata yekun vurulur. Dissertasiyada aparılan tədqiqatdan əldə etdiyimiz nəticələri aşağıdakı kimi ifadə edə bilərik. İzmir vilayəti Torbalı bölgəsinin xalq musiqisi mövzusunda tədqiqat işimiz nəticəsində xalq mədəniyyəti baxımından əhəmiyyətli tapıntılar əldə edilmişdir. Kosmopolit bir quruluşa sahib olan və bu səbəblə fərqli mədəni zənginlikləri özündə cəmləşdirən Torbalı bölgəsi kəndlərində edilən sahə araşdırmaları İzmir zeybek tərzi mövzusunda əhəmiyyətli nəticələrə gətirib çıxarmışdır.

1. İşimizdə da ifadə edildiyi kimi, İzmir zeybek musiqisində iki tərz var: Selanik tərzi; Abdal tərzi. Bu iki tərz, İzmir Zeybek musiqisinin əhəmiyyətli xüsusiyyətlərindəndir. Torbalı bölgəsində illər boyu yaşamış və yaşamaqda olan Roman-Abdal mədəniyyəti, zaman müddəti içərisində, mədəniyyət mübadiləsi prosesində öz tərzini meydana gətirərək digər zeybek bölgələrindən fərqli bir tərzə sahib olmuşdur. Torbalıda aparılan araşdırmalarda əldə etdiyimiz məlumatlardan bu vəziyyət açıq bir şəkildə görünməkdədir.

Bu vəziyyətin niyə fərqli bir tərz olduğunu və Torbalı bölgəsinin ayrı bir bölgə olaraq qəbul edilməsinin lazım olduğunu maddələrlə söyləyək:

I-Tərz ola bilməsi üçün: A) ritmik quruluşu, (düzümlər və tartımlar); B) sazın – alətin ritmli çalınış şəkli (darplar, vurğuların eyni şəkildə təkrarlanması); C) melodik düzümlər ilə nüansların eyni şəkildə təkrarlanması; D) templərin müəyyən bir anlayışda olması lazımdır.

II - Region ola bilməsi üçün: A) yaşayan mədəniyyətlərin içərisinə, başqa mədəniyyətlərin əlavə olması, (Zeybek mədəniyyəti içərisinə, Yörük və Abdallar gəlməsi kimi); B) çalğı alətləri ilə tezlik və rəng fərqliliyinin meydana gəlməsi; C) yaranan yeni anlayışın bütövlükdə, motivlərin düzümlərinin eyni anlayışda bənzərlik göstərməsi lazımdır.

Bu səbəblərdən apardığımız Torbalı bölgəsi xalq musiqisi tədqiqatları (sahə araşdırması) nəticəsində, ortaq İzmir tərzi içərisində yeni bir regional üslub ortaya çıxarılmışdır. Bu işimiz ilə birlikdə İzmirdə musiqi və oyunda

6 fərqli üslub olması ilə yanaşı, Torbalının da özünə xas üslubu və məlumatlılığı olması, 7-ci bölgə olaraq Torbalını təsdiq etmək ən böyük qənaətimiz olmuşdur.

2. Torbalının kosmopolit quruluşu, zeybek mədəniyyətindən bir şey itirməməsi, hətta xarici köçlərlə Torbalıya yerləşənlərin əvvəl zeybek mədəniyyətini mənimsəyib, öz mədəniyyətlərinin əlavələri ilə Torbalının fərqli bir üsluba sahib olması təyin etmişdir. Buradakı ən əhəmiyyətli xüsusiyyət, Abdal mədəniyyətində uzun səslərin hüznü ifadə etməsilə birlikdə, yörük ənənəsinin çevik quruluşu birləşmiş və ortaya İzmir zeybeklərinin içində fərqli bir üslub təqdim etmişdir. Torbalı bölgəsinin fərqli bir üslub olduğu ortaya çıxmışdır.

3. İşimizdə Torbalı bölgəsinə aid Abdallar yaşadığı Göllüce kəndində toy ənənəsi və zeybek musiqisi ilə əlaqədar etdiyimiz araşdırmanın nəticəsində "Oturak Havası", "Yol Havası", "Gelin Alma Mərasimi", "Qədim Yol Havası", "Oyun Havası" olaraq, bu bölgədə edilən toyların beş hissədən  ibarət olduğu müəyyən olunmuşdur.

4. Ormanköydə toyun simvolu olaraq oğlan evinin bacasına və ya ən yüksək yerə bayraq asılır. Bayrağı asan adamın "bayraqdar" adlandırılır, bayraqdar, kürəkənin gənc və subay yoldaşlarından biri, eyni zamanda toyu təşkil edən adamdır. Bu bayraq da kəndin gənclik bayrağıdır. Bir tərəfində Türk bayrağı, bir tərəfində də Ormanköy gəncliyi yazan bir bayraq növüdür. Bu bayrağın mənası, müstəqilliklə birlikdə dövlətə olan hörmətdir. Bu bayrağın altında toyun rahat keçirilməsi inancının hakim olduğunu bildirir.

5. Ormanköydə də qadın əyləncələri Düz Oyun Havaları, Çeşit Oyun Havaları və Erkek Oyun Havaları olaraq üç yerə ayrılır. Ayrıca Ormanköydə qadınların, özlərinə görə mani qoşaraq sözlü hala gətirdikləri kişi oyunlarını oynamaqda olduqlarını, adının kişi oyunu olmasına baxmayaraq qadın oyunu halına gətirdikləri müəyyən olunmuşdur. Dümbəkçilər hamıya məlum olan türküləri söyləmənin xaricində, bəzən də o an inkişaf edən improvizə sözlərlə amma eyni türkülərlə oyun oynayanları müşayiət etməkdədir.

6. Helvacıköydə edilən sahə araşdırmasında isə, toy mərasimlərində bölgəyə aid ənənə və adətlərin hələ də yaşadıldığı görünür. Helvacıköydə toylar, qadınların və kişilərin ayrı-ayrı qeyd etdiyi mərasimlərdir. Bunun səbəbinin isə dini olmadığı, əksinə, rahatca hərəkət edə bilmək, zarafatların daha rahat edilə bilməsi üçün, qadınların və kişilərin ayrı-ayrı olmaq istəmələrindən qaynaqlanır.

7. Helvacıköydə qadınların əyləncəsində dümbəkçi adı verilən qadın çalğıçılar, toy yerində oyun havaları, xına ağısı və türkülər olaraq üç hissədə əyləncə edirlər. Əyləncəyə yaşlı qadınların oyunları ilə başlandığı, sıra ilə qonaqların çeşit oyunu və ya "erkək oyunu" deyilən oyunları oynadığını, daha sonra gəlinə xına yaxılmaqdadır və gəlin ağlatması edilməkdədir.

8. Qədim ənənələrə görə toylar çərşənbə və cümə axşamı günləri edilərkən, iş həyatının dəyişdiyi indiki vaxtda, uzaqdan gələn qonaqların iş vəziyyətinə görə toylar cümə və şənbə günləri edilməyə başlanmış olduğu təsbit edilmişdir. Bunun səbəbinin isə, dağ kəndlərində yaşayan kəndlilərin, 1970-ci illərdə iqtisadi çətinlik çəkməyə başlaması və bunun nəticəsində böyük şəhər olan İzmirdə fabriklərdə işə başlamasından qaynaqlandığı müəyyən olunmuşdur. Fabriklərin iş saatlarına görə toy ənənələrinin günləri də dəyişmişdir. Dümbəkçi qadınların, dümbək çalmağı və türkü söyləməyi analarından və xalalarından öyrəndikləri, bunun da bir ənənə olduğu müəyyən olunmuşdur.

9. Zorla gəlin ağlatması olduğu, xüsusilə gəlinin ağladılması üçün bir mərasim olduğu, inanca görə gəlin ağlamasının mütləq olması, ailəsinə bağlılığını göstərməsi, ayrılma hüznünü və yeni yuva qurarkən xoşbəxtlik gözyaşı axıtması baxımından, gəlinin ağlamasının əhəmiyyətli olduğu müəyyən olunmuşdur.

10. Kişi oyunları sözsüz olduğu üçün, qadınların “ni-na” sözlərini istifadə edərək melodik şəkildə söyləməkdə olduqlarını, sözsüz olaraq bilinən kişi oyunlarını sözlü olaraq söylədikləri təsbit edilmişdir. Ayrıca bu bölgədə oynanan oyunların başında gələn "Koroğlu" oyununun da olduğunu, bu oyununun qadınlar tərəfindən də oynanıldığı müəyyən olunmuşdur. Koroğlu oyununda kişilərin bıçaq, qadınların isə qaşıqlarla oynadığı təyin edilmişdir.

Xalq oyunlarının mədəniyyətin inkişafına müsbət təsiri ilə bağlı fikirlərimizi qeyd edərək, tədqiqatın perspektivlərini də göstərmək istərdik. Aparılan sahə araşdırmalarının nəticəsində yığılan mədəni dəlillər, yalnız mədəniyyətlə bağlı olmayıb, iqtisadi, ictimai və psixoloji baxımdan bütün cəmiyyətlərə töhfə verir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**

1. Türk Halk Müziğinde Zeybek Türü. // «Konservatoriya» (elmi nəşr). № 3, Bakı, 2012, s. 73-82
2. Türkiye Cumhuriyeti-İzmir Vilayeti-Torbalı İlçesi-Göllüce Köyü Alan Araştırması. // "Təsviri və dekorativ tətbiqi sənət məsələləri". №1 (11). Bakı, 2013, s. 70-76
3. Türkiye Cumhuriyeti-İzmir Vilayeti-Torbalı İlçesi-Ormanköy Alan Araştırması. // «Konservatoriya» (elmi nəşr). № 1, Bakı, 2013, s. 144-151
4. Müzik Türü Olarak Zeybek (İzmir-Torbalı Örneği). // Akademik Bakış Dergisi, Sayı: 48, Mart-Nisan 2015 Uluslararası Hakemli Sosyal Bilimler E-Dergisi, sayfa 285-297. http://www.akademikbakis.org/dergi//muzik-turu-olarak-zeybek-izmir-torbali-ornegi201503.pdf
5. Stüdyo Müzik Endüstrisinin, Halk Oyunları Müzik Kültürüne Katkıları. / IV Uluslararası Hisarlı Ahmet Sempozyumu, Müzik Nereye Gidiyor? 6-8 Haziran 2013, Dumlupınar Üniversitesi/Kütahya, sayfa 601-607
6. Türkiyədə təşkil edilən xalq oyunları ilə bağlı fəaliyyətlərin sənaye ölçüsü, toplanan musiqilərin yarışma üçün əhəmiyyəti, səhnəyə gəlmə müddəti və universitetin bu işdə rolu. // Elektron Beynalxalq mədəniyyət jurnalı "Harmoniya"//http://harmony.musigi-dunya.az, № 14, 2015
7. İzmir vilayəti torbalı bölgəsinin musiqi folklorunun tədqiqindənəldə edilən nəticələr. // Elektron Beynalxalq mədəniyyət jurnalı "Harmoniya"// http://harmony.musigi-dunya.az, № 15, 2015

**Таркан Мустафа оглы Эркан**

**«Исследование музыкального фольклора Торбалинского края Измирской области»**

## РЕЗЮМЕ

Диссертация посвящена изучению жанра зейбек в музыкальном фольклоре Торбалинского края Измирской области. В этом аспекте в диссертации исследованы свадебные обряды в селах Торбалинского края, где широко распространены танцы зейбек. Автором проводились полевые исследования в селах Гёллюджа, Орман и Хелвачи, в результате были выявлены разновидности зейбек, являющиеся традиционными жанрами, издревле бытовавшие в свадебных обрядах данного края.

Диссертация состоит из введения, 2-х глав, заключения и списка использованной литературы.

**I глава диссертации – «Музыкальная культура Измирской области и жанр Зейбек»** - состоит из двух разделов: **1.1. – «История и география Торбалинского края Измирской области»; 1.2. – «Зейбек как жанр турецкого музыкального фольклора».**

**II глава - «Полевые исследования в Торбалинском крае и анализ зейбеков»** - состоит из трех разделов: **2.1. – «Село Гёллюджа»; 2.2. – «Село Орман»; 2.3. – «Село Хелвачи».**

В заключении даются выводы и обобщения проведенного музыкального анализа.

**Tarkan Mustafa Ercan**

## The study of folk music of Torbaly zone of Izmir region

## SUMMARY

The dissertation is devoted to the genre of Zeybek of folk music of Torbaly zone of Izmir region. In this aspect, the dissertation investigated the wedding ceremonies in the villages of Torbaly region, where widespread Zeybek dance. The author conducted field research in the villages Golluja, Orman and Helvachi, as a result is identified varieties of Zeybek as a traditional genres, from ancient times was common in wedding ceremonies in the region.

The dissertation consists of introduction, 2 chapters, the conclusion and the bibliography.

**The I chapter of the dissertation - "Musical Culture of Izmir region and genre of Zeybek"** - consists of two sections: **1.1. - "History and geography of Torbaly zone of Izmir region"; 1.2. - "Zeybek as a genre of Turkish folk music."**

**Chapter II - "Field studies in the Torbaly zone and analysis of Zeybek"** - consists of three sections: **2.1. - "The village of Gëllyudzha"; 2.2. - "The village of Orman"; 2.3. - "The village of Helvachi."**

In conclusion is given inference and generalizations of musical analysis.

Çapa imzalanıb: 09.07.2015.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**ТАРКАН МУСТАФА оглы ЭРКАН**

# ИССЛЕДОВАНИЕ МУЗЫКАЛЬНОГО ФОЛЬКЛОРА ТОРБАЛИНСКОГО КРАЯ ИЗМИРСКОЙ ОБЛАСТИ

6213.01 – Музыкальное искусство

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку – 2015**